

Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

# İXRAC İCMALI

Mart 2021

iqtisadiislahat.org
info@ereforms.org

AZEXPORT.AZ
**Made in Azerbaijan**

# “QƏDİM AZƏRBAYCAN TORPAĞI OLAN ZƏNGƏZUR İNDİ TÜRK DÜNYASININ BİRLƏŞMƏSİ ROLUNU OYNAYACAQ”.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının videokonfrans formatında qeyri-formal Zirvə görüşündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışı, 31 mart 2021



“Qədim Azərbaycan torpağı olan Zəngəzur indi türk dünyasının birləşməsi rolunu oynayacaq. Çünki Zəngəzurdan keçən nəqliyyat, kommunikasiya, infrastruktur layihələri bütün türk dünyasını birləşdirəcək, eyni zamanda, digər ölkələr üçün əlavə imkanlar yaradacaq”.

# MÜNDƏRİCAT

Qeyri-neft sektoru üzrə ixraca dair məlumat — səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi — səh. 10

2021-ci ilin yanvar-fevral aylarında "Azərkosmos" ASC 8,5 milyon ABŞ dolları dəyərində xidmət ixrac etmişdir — səh. 13

2021-ci ilin yanvar-fevral aylarında Azərbaycanda xaricilər bank kartları vasitəsi ilə 50,5 milyon manatlıq əməliyyat aparmışlar — səh. 14

Azexport.az portalına 2021-ci ilin yanvar-fevral aylarında 89,2 milyon ABŞ dolları məbləğində ixrac sifarişi daxil olmuşdur — səh. 16

2021-ci ilin mart ayında "Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən 18,4 milyon ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir — səh. 19

1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT

2021-ci ilin **yanvar-fevral ayları** ərzində **Azərbaycanın ixracı** **2,8 milyard** ABŞ dolları dəyərində mal ixrac olunmuşdur

2021-ci ilin **yanvar-fevral aylarında** qeyri-neft sektoru üzrə ixrac **331,3 milyon** ABŞ dolları təşkil etmişdir

2021-ci ilin yanvar-fevral ayları ərzində Azərbaycanın ixracı **2,8 milyard ABŞ dolları** olub. Qeyri-neft sektoru üzrə **331,3 milyon ABŞ dolları** dəyərində ixrac reallaşdırılıb. Qeyri-neft sektoru üzrə ixrac 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə **33,6 milyon ABŞ dolları** və ya **11,3 faiz** artıb.

Bu ilin yanvar-fevral ayları ərzində Türkiyəyə **106,9 milyon**, Rusiyaya **85,5 milyon**, İsveçrəyə **35,2 milyon**, Gürcüstana **28,3 milyon** və ABŞ-a **13,2 milyon** ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

2021-ci ilin yanvar-fevral ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında pambıq mahlıcı (37,1 milyon ABŞ dolları) birinci, qızıl (34,4 milyon ABŞ dolları) ikinci və xurma (27,9 milyon ABŞ dolları) üçüncü olub.

2021-ci ilin fevral ayında ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında qızıl (24,7 milyon ABŞ dolları) birinci, pambıq mahlıcı (22,7 milyon ABŞ dolları) ikinci və elektrik enerjisi (15,7 milyon ABŞ dolları) üçüncü olub.

2021-ci ilin fevral ayında qeyri-neft sektoru üzrə ixrac 185,2 milyon ABŞ dolları təşkil edib. Bu ilin fevral ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Türkiyə (54,1 milyon ABŞ dolları) birinci yerdə qərarlaşıb. Bu siyahıda Rusiya ikinci (42,7 milyon ABŞ dolları) və İsveçrə üçüncü (25,1 milyon ABŞ dolları) olub.

Ümumiyyətlə, 2021-ci ilin 2 ayı ərzində meyvə-tərəvəz ixracı **70,5 milyon**, pambıq lifi ixracı **37,4 milyon**, alüminium və ondan hazırlanan məmulatların ixracı **27,7 milyon**, kimya sənayesi məhsullarının ixracı **6,3 milyon**, qara metallar və onlardan hazırlanan məmulatların ixracı **14,6 milyon**, pambıq ipliyi ixracı **6,9 milyon**, spirtli və spirtsiz içkilərin ixracı **1,9 milyon**, şəkər ixracı **4,9 milyon**, bitki və heyvan mənşəli piylər və yağlar ixracı **3,9 milyon**, çay ixracı **1,4 milyon** ABŞ dolları təşkil edib.

MADE IN AZERBAIJAN

## 2021-ci ilin **YANVAR-FEVRAL AYLARINDA** qeyri-neft sektoru üzrə **5 ƏSAS İXRAC ÖLKƏSİ**
(2020-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



# 2021-ci ilin **FEVRAL AYINDA** qeyri-neft sektoru üzrə **5 ƏSAS İXRAC ÖLKƏSİ**
(2020-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)






# 2021-ci ilin **YANVAR-FEVRAL AYLARINDA** ixrac olunan əsas **QEYRİ-NEFT MALLARININ SİYAHISI**
(2020-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2021 İXRAC İCMALI MART














| Mal | 2021 | 2020 |
|---|---|---|
| Pambıq mahlıcı | 37,1 | 29,9 |
| Qızıl | 34,4 | 27,3 |
| Xurma | 27,9 | 14,1 |
| İlkin formalı polipropilen | 19,8 | 14,5 |
| Qabığı təmizlənmiş meşə fındığı | 18,8 | 22,2 |
| Elektrik enerjisi | 16,1 | 17,8 |
| Xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen | 15,3 | 8,3 |
| Tomat (pomidor) | 14,2 | 24,7 |
| Digər yağlar və məhsullar | 10 | 4,5 |
| Digər | 137,7 | 132,6 |

# 2021-ci ilin **FEVRAL AYINDA** ixrac olunan əsas **QEYRİ-NEFT MALLARININ SİYAHISI**

(2020-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

| Mal | 2021 | 2020 |
|---|---|---|
| Qızıl | 24,7 | 11 |
| Pambıq mahlıcı | 22,9 | 19,5 |
| Elektrik enerjisi | 15,7 | 10,2 |
| Xurma | 11,2 | 3,5 |
| İlkin formalı polipropilen | 9,7 | 7,9 |
| Qabığı təmizlənmiş meşə fındığı | 8,6 | 11 |
| Xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen | 8,4 | 4,2 |
| Tomat (pomidor) | 7,4 | 11,5 |
| Aşqarlanmamış alüminiumdan düzbucaqlı plitələr | 6,1 | 0,7 |
| Digər | 70,5 | 76,3 |

## FEVRAL AYINDA ƏN ÇOX İXRAC EDİLƏN QEYRİ-NEFT SEKTORUNA AİD MALLAR (milyon ABŞ dolları ilə)

2021 İXRAC İCMALI MART

| 2019 | 2020 | 2021 |
|---|---|---|
| Yanvar | Yanvar | Yanvar |
|  |  |  |
| Xurma **12,6** | Qızıl **16,3** | Xurma **16,7** |
| Fevral | Fevral | Fevral |
|  |  |  |
| Elektrik enerjisi **19,4** | Pambıq mahlıcı **19,5** | Qızıl **24,7** |

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

## **2021-ci ildə fevral ayında** qeyri-neft sektoru üzrə **əsas ixracatçı subyektlərin reytinqi**

“İxrac İcmalı” tərəfindən qeyri-neft sektoru üzrə 2021-ci ilin yanvar-fevral ayları üzrə həyata keçirilən ixracla bağlı həm qeyri-dövlət, həm də dövlətə məxsus ixracatçı subyektlərin reytinqi tərtib edilmişdir.

2021-ci ilin yanvar-fevral ayları üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: "MKT İstehsalat Kommersiya" MMC, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, "P-Aqro" MMC, "Baku Steel Company", "Critical Fruit" MMC, "Almeyvə" MMC, "Metal Trader LTD" MMC, "Sun Food" MMC, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC və “Aqrovest” MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısına isə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin “Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi” başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: “Socar Polymer” MMC, "Azəralüminium" MMC, "Azergold" QSC, "Azərenerji" ATSC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərbaycan Dəmir Yolları" QSC, “Azəripək” MMC, “Azərtütün Aqrar Sənaye Kompleksi” MMC və "Azərbaycan Hava Yolları" QSC.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.



2021-ci ilin **YANVAR-FEVRAL AYLARINDA** qeyri-neft sektoru üzrə **QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ** (Ötən ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)



2021-ci ilin **YANVAR-FEVRAL AYLARINDA** qeyri-neft sektoru üzrə **DÖVLƏTƏ MƏXSUS ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ** (Ötən ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2021 İXRAC İCMALI MART






* "Socar Polymer" MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisədir.

# 2021-ci ilin **YANVAR-FEVRAL AYLARINDA "AZƏRKOSMOS" ASC 8,5 MİLYON ABŞ DOLLARI** dəyərində **XİDMƏT İXRAC ETMİŞDİR**



2021-ci ilin yanvar-fevral aylarıda "Azərkosmos" ASC tərəfindən dünyanın 23 ölkəsinə xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilmişdir. "Azərkosmos" ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 90 faizini təşkil etmişdir.

2021-ci ilin fevral ayında isə "Azərkosmos" ASC dünyanın 21 ölkəsinə **6,5 milyon ABŞ dolları** dəyərində xidmət ixrac etmişdir.




**2021-ci ilin yanvar-fevral aylarında "Azərkosmos" ASC-nin xidmət ixrac etdiyi 5 əsas ölkə**

| Ölkə | Dəyər |
|---|---|
| ABŞ | 4,3 mln $ |
| Birləşmiş Krallıq | 1,8 mln $ |
| Fransa | 1,2 mln $ |
| BƏƏ | 283 min $ |
| Pakistan | 230 min $ |



## 2021-ci ilin **yanvar-fevral aylarında** Azərbaycanda **xaricilər bank kartları vasitəsi ilə 50,5 milyon** manatlıq əməliyyat aparmışlar

Koronavirus (COVID-19) pandemiyasının yaratdığı böhran nəticəsində turizm sektorunda müşahidə olunan tənəzzül cari ilin ilk aylarında da davam etmişdir.

Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən 2021-ci ilin yanvar-fevral aylarında Azərbaycana dünyanın 123 ölkəsindən 72,1 min və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 5,9 dəfə az əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmiş və baş tutmuş səfərlər əsas etibarilə qeyri-turizm məqsədilə həyata keçirilmişdir.

2021-ci ilin yanvar-fevral aylarında ölkəmizə gələnlərin 33,3 faizi Rusiya Federasiyası, 28,8 faizi Türkiyə, 14,9 faizi İran, 10,4 faizi Gürcüstan, 2,4 faizi Ukrayna, 1,2 faizi Böyük Britaniya, 1,0 faizi Belarus, hər birindən 0,7 faiz olmaqla Qazaxıstan, Özbəkistan və Türkmənistan, 0,6 faizi İtaliya, 0,5 faizi Almaniya, 0,3 faizi ABŞ, 4,5 faizi digər ölkələrin vətəndaşları olmuşdur.

2020-ci ilin yanvar-fevral ayları ilə müqayisədə ümumilikdə körfəz ölkələrindən gələnlərin sayı 5,6 dəfə azalaraq 11,0 min nəfər, MDB ölkələrindən gələnlərin sayı 5,2 dəfə azalaraq 28,3 min nəfər, Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 4,3 dəfə azalaraq 2,8 min nəfər olmuşdur.

2021-ci ilin fevral ayında xarici vətəndaşların bank kartları vasitəsi ilə ölkəmizdə apardıqları əməliyyatların həcmi **25,5 milyon manat** təşkil etmişdir. 2021-ci ilin yanvar-fevral aylarında isə əcnəbilər bank kartları vasitəsi ilə **50,5 milyon manatlıq** əməliyyat aparmışlar.

Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

Azərbaycana gələn **XARİCİ VƏTƏNDAŞLARIN BANK KARTLARI VASİTƏSİ** ilə apardıqları əməliyyatlar (milyon manatla)



**2019**

Yanvar - **88,3**
Fevral - **85,3**
**Cəmi - 173,6**

**2020**

Yanvar - **85,2**
Fevral - **72,9**
**Cəmi - 158,1**

**2021**

Yanvar - **25**
Fevral - **25,5**
**Cəmi - 50,5**

# 3

# AZEXPORT.AZ PORTALINA 2021-Cİ İLİN YANVAR-FEVRAL AYLARINDA 89,2 MİLYON ABŞ DOLLARI MƏBLƏĞİNDƏ İXRAC SİFARİŞİ DAXİL OLMUŞDUR

Portala daxil olan İXRAC SİFARİŞLƏRİNİN **ümumi dəyəri** **2 milyard 285 milyon** ABŞ dolları təşkil etmişdir

2021-ci ilin yanvar-fevral aylarında Azexport.az portalına 89,2 milyon ABŞ dolları dəyərində ixrac sifarişləri daxil olmuşdur. 2021-ci ilin fevral aylarında Azexport.az portalına daxil olan ixrac sifarişlərinin dəyəri isə 35,3 milyon ABŞ dolları təşkil etmişdir.

2021-ci ilin fevral ayında Azexport.az portalına ən çox ixrac sifarişi tütün, şəkər tozu, fındıq ləpəsi, günəbaxan yağı, biyan kökü, çay, şərab, toyuq yumurtası, meyvə şirəsi, kosmetik vasitə, mühərrik yağı, qənnadı məhsulu, pambıq, toyuq əti, zəfəran, sarımsaq və s. mallara daxil olmuşdur.

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2021-ci ilin 28 fevral tarixinə kimi (50 ay ərzində) Azexport.az portalına dünyanın 143 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri 2 milyard 285 milyon ABŞ dolları təşkil edib.

Azexport.az portalına daxil olan ixrac sifarişləri barədə daha dolğun məlumat isə təqdim olunan infoqrafikalarda verilmişdir.

# **AZEXPORT.AZ PORTALINA** daxil olan **İXRAC SİFARİŞLƏRİNİN MƏBLƏĞİ**

2021 İXRAC İCMALI MART

2017-ci il - **475 mln $**

2018-ci il - **514,1 mln $**

2019-cu il - **595,7 mln $**

2020-ci il - **610,8 mln $**




2021-ci il

Yanvar - **53,9 mln $**

Fevral - **35,3 mln $**

2021-ci il - **89,2 mln $**



Son **50 ay** ərzindəki sifarişlərin cəmi - **2 284,8 mln $**

# 2021-ci ilin **FEVRAL AYINDA** AZEXPORT.AZ PORTALINDAN **İXRAC SİFARİŞİ ALAN ƏSAS MALLAR**

2021 İXRAC İCMALI MART

Tütün



Şəkər tozu



Fındıq ləpəsi



Günəbaxan yağı



Biyan kökü



Çay



Şərab



Toyuq yumurtsı



Meyvə şirəsi



Kosmetik vasitə



Mühərrik yağı



Qənnadı məhsulu



Pambıq



Toyuq əti



Zəfəran



4

# 2021-Cİ İLİN MART AYINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN 18,4 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ QEYRİ-NEFT İXRACI HƏYATA KEÇİRİLMİŞDİR

"Bir Pəncərə" İxraca Dəstək Mərkəzinə 2021-ci ilin mart ayı ərzində hüquqi və fiziki şəxslər tərəfindən **103 dəfə** müraciət daxil olunub. Ümumilikdə 152 ədəd sertifikat (79 ədəd mənşə, 45 ədəd baytarlıq, 9 ədəd Qida təhlükəsizliyi sertifikatı, 19 ədəd CİTES) verilib.

Cari ilin mart ayı ərzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə 18,4 (18,422,134.68) milyon ABŞ dolları dəyərində ixrac həyata keçirilmişdir. Hüquqi və fiziki şəxslər tərəfindən qiymətli külçələr, biyan kökü, nar, alma şirələri, narşərab, çaxır, araq, bitki və günəbaxan yağları, tibbi zəli, xromlanmış heyvan dərisi, iri və xırdabuynuzlu heyvanların daxili orqanları, pikellənmiş xırdabuynuzlu heyvan dərisi, iribuynuzlu heyvan dərisnin sənayedə kəsilməsi nəticəsində yığılan faydasız tullantılar, kərə tərkibli bitki yağı, zeytun yağı, xiyar, pomidor turşusu, leço, badımcan kürüsü, yaşıl, qara çay, qənd, pendir, nərəcinsli balıqların kürüsü, qoyun bağırsağı, qızılgül, Dağıstan turu, göyərçin, çərəz qutusu, dondurma, dondurma üçün vafli stəkanı, polad armatur yayması, polad boru, polad kvadrat pəstah ixracı həyata keçirilib.

Yuxarıda adı çəkilən məhsullar arasında qiymətli külçələr (49,4%), (polad armatur yayması (17,6%), pendir (14%), günəbaxan yağları (14,4%), meyvə şirələrinin (1,2%) ixracı üstünlük təşkil etmişdir. Sertifikat verilən məhsullar 25 ölkəyə- İsveçrə (49,4%), Gürcüstan (17,6%), Rusiya (16,4%), Türkiyə (8,9%), İraq (5%), digər ölkələrə (2,7%)- (Polşa, Qazaxıstan, Kanada, Ukrayna, Tayvan, Dubay, Honq-Konq, ABŞ, Yeni Zelandiya, Macarıstan, Xorvatiya, Özbəkistan, Fil Dişi Sahili, BƏƏ, Fransa, Belarus, Malayziya, Almaniya, Litva, Sinqapur) ixrac edilmişdir. İxrac olunan məhsulların hava nəqliyyatı ilə (49,6%), avtomobil ilə (44,2%), dəmiryolu nəqliyyatı (5%), qarışıq nəqliyyat ilə ixracı isə (1,1%) təşkil edir.

Ixrac statistikasına nəzər yetirdikdə 2020-ci ilin mart ayı ilə müqayisədə ixracda **3,1 milyon ABŞ dolları** dəyərində artım müşahidə olunmuşdur.

2017-ci ildən 2021-ci ilin mart ayına qədər "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə ixrac edilən mal və məhsulların dəyəri **520,6 milyon ABŞ dolları** təşkil edib.

2021-ci ilin **MART AYINDA** "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə həyata keçirilən **İXRACIN STATİSTİKASI** (milyon ABŞ dolları ilə)

2021 İXRAC İCMALI MART






## Cari ilin **MART AYINDA "Bir Pəncərə" İxraca Dəstək Mərkəzinin** təqdim etdiyi **SERTİFİKATLARIN ÖLKƏLƏR ÜZRƏ BÖLGÜSÜ**

İSVEÇRƏ
**49,4%**

TÜRKİYƏ
**8,9%**




GÜRCÜSTAN
**17,6%**

İRAQ
**5%**

RUSİYA
**16,4%**

Cari ilin **MART AYINDA "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi** vasitəsilə
**ƏN ÇOX İXRAC OLUNAN MƏHSULLARIN BÖLGÜSÜ**



# Cari ilin **MART AYINDA "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi** vasitəsilə ixrac edilən məhsulların **NƏQLİYYAT ÜZRƏ BÖLGÜSÜ**

2021 İXRAC İCMALI MART



**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN**
**"BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ**

AZ 1073, Bakı ş., Yasamal r., Q. Xəlilov küç., 47
47, Khalilov str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Г. Халилова, 47

Tel.: (+994 12) 521 28 48
E-mail: info@ereforms.org

www.iqtisadiislahat.org
www.ereforms.org
www.ecoreform.az

/iqtisadiislahat

/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi




Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən
"İxrac İcmalı" jurnalı 11 yanvar 2018-ci il tarixində
N4160 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə
daxil edilmişdir.

iqtisadiislahat.org
ereforms.org
ecoreform.az

/iqtisadiislahat

Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.org

